**UOT 37.04**

**Nailə Fuad qızı Şirinova**
**Azərbaycan Texniki Universiteti**
**dosent**
**e-mail: nailashirinova59@gmail.com**

# MAARİFÇİLİK MƏFKURƏSİ VƏ ONUN MAHİYYƏTİ

**Xülasə:** Azərbaycan mədəniyyətində mühüm yer tutan maarifçilik ideyaları və ədəbi-nəzəri ənənələr millətin təbii mənbəyi və mənəvi özünümüdafiə kimi meydana gəlmişdir. Azərbaycan maarifçilərinin irəli sürdükləri milli ideyalar etnotarixi mötəbərlik və etnomədəni mahiyyət kəsb etmişdir.

**Açar sözlər:** maarifçilik fəlsəfəsi, milli dəyər, milli mədəniyyət.

XIX əsr Azərbaycan fəlsəfəsi qədim və zəngin ictimai-fəlsəfi fikir tariximizdə, mədəniyyətimizdə millilik və müasirlik meyilləri əsasında yaranan, mahiyyətcə köklü bir dönüş, məzmunca yeni bir dövr kimi əvəzsiz yer tutur və mühüm əhəmiyyət kəsb edir.

Maarifçilik hərəkatı xalqın bütün bu məhrumiyyətlərə müqavimət reaksiyası kimi meydana gələrək, tarixi yaddaşın itməməsi, ana dilinin, adət və ənənələrin qorunub-saxlanması, inkişafı, mənəviyyatın, milli dəyərlərin yaşadılması, bütövlükdə milli şüurun oyanması və milli özünüdərk prosesinin güclənməsi üçün mühüm təkanverici rol oynamışdı.

XIX əsrdə Avropada baş qaldıran maarifçi fəlsəfi fikir tədricən Azərbaycana yayılmağa və təsir göstərməyə başlamışdır. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Azərbaycanda da maarifçilik ideyaları təşəkkül tapmağa başlamışdır. Qərb ölkələrinə və Rusiyaya nisbətən Azərbaycanda maarifçilik ideyalarının bir qədər gec meydana çıxması o zamankı Azərbaycanın konkret siyasi-iqtisadi, sosial-mədəni mühiti ilə əlaqədar olmuşdur.

Azərbaycan maarifçiliyi Azərbaycan ictimai mühitində yarandığından və təkcə Qərbin və Rusiyanın deyil, həm də Şərqin mütərəqqi ideya-fəlsəfi ənənələrindən istifadə etdiyindən, o, özünəməxsus spesifik xüsusiyyətlər kəsb etmiş, orijinal inkişaf yolu tuta bilmişdir. Məhz buna görə də, Azərbaycan maarifçilik ideyaları Azərbaycan xalqının milli intibahına, mədəni tərəqqisinə güclü təsir göstərmişdir. XIX əsr Azərbaycan maarifçilik fəlsəfəsində azadlıq ideyalarının təşəkkülünün əsasında milli maarifçilik fəlsəfəsində rolu yüksək qiymətləndirilmişdir. XIX əsr Azərbaycan maarifçilik fəlsəfəsində azadlıq ideyalarının təşəkkülünün əsasında milli maarifçilik fəlsəfəsinin rolu yüksək qiymətləndirilmişdir. Azərbaycan maarifçiləri ictimai böhrandan azad olmağın

yolunu məhz xalqın maariflənməsində görürdülər. Bu baxımdan da XIX əsrdə Azərbaycan gerçəkliyinin sosial-mədəni inkişafının tələblərinə cavab verən və universallığı ilə səciyyələnən maarifçilik hərəkatının ideologiyası və fəlsəfi görüşləri təşəkkül tapırdı [1].

Azərbaycan maarifçilik fəlsəfəsində mədəni bazanın və ölkənin sosial-siyasi vəziyyətinin Qərb və Rusiya maarifçiliyindən bir sıra fərqli xüsusiyyətləri mövcud idi. İlk növbədə bu dövrün maarifçilərinin dinə münasibəti çox fərqli idi. Bu fərqi yaradan real obyektiv səbəb rus çarizminin Azərbaycan xalqını dinindən, dilindən, milli mədəniyyətindən ayırmaq və onu etnik assimilyasiyaya uğratmaq siyasəti idi.

Yuxarıda qeyd olunanlar Azərbaycanda XIX əsrin ortalarından başlayan milli oyanış, milli özünüdərk və mədəni yeniləşmə prosesini, dünyəvi-elmi biliklərin yayılmasını, o cümlədən, milli-ictimai və fəlsəfi fikrin yeni məcrada inkişafını və bu inkişafı şərtləndirən başlıca amilləri ilkin mənbələr əsasında izləmək baxımından olduqca dəyərlidir. Buradan da göründüyü kimi, bəhs edilən dövrdə Azərbaycanda mövcud olan bütün çətinliklər, çar üsul-idarəsinin törətdiyi maneələrə baxmayaraq, ictimai inkişafın başlıca meyilləri olan milli oyanış və mədəni yeniləşmə qarşısıalınmaz olub. Bu prosesdə isə başda A. A. Bakıxanov, M. F. Axundov olmaqla milli ziyalı təbəqəsinin aparıcı və hərəkətverici qüvvə kimi həm ideya-nəzəri, həm də əməli cəhətdən müstəsna rolu olmuşdur. Mütərəqqi maarifçilik ideyalarının, elmi biliklərin, milli oyanış və qurtuluş məfkurəsinin əsas daşıyıcısı bir çox ilklərin müəllifi və icraçısı olaraq bu ziyalı təbəqə özünün çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə Azərbaycan ictimai-fəlsəfi fikir tarixində də yeni dövrün başlanğıcını qoyaraq, əsaslı dönüş yarada bilmişdilər.

Ə. Daşdəmirov Azərbaycan ideyasının millətin ideyası kimi Azərbaycan maarifçilərinin son dövrləri və liberal-demokratik hərəkatın yeni yarandığı dövrlərin qovuşuğunda meydana gəldiyini göstərir. Müasir Azərbaycan mədəniyyətinin yaradıcıları onun əsasında şəxsiyyət azadlığı, humanizm, sosial ədalət ideallarının, dini fanatizmə, klerikalizmə qarşı mübarizənin durduğunu iddia edirdilər. Xalqın dünyagörüşünü tam ifadə edən XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı və incəsənətində aydın təcəssüm tapan ənənələr yaranırdı. Bu ənənələrdə xalq varlığının özünəməxsus fəlsəfi-ədalətli cəmiyyət quruculuğunun mənəvi axtarışlarının yolları və vasitələri güclü antifeodal, antiçar, antimüstəmləkə istiqamətlər birləşmişdi. Bu, maarifçilik ideologiyası və mədəniyyətinin, milli özünüdərkin, milli dirçəliş və tərəqqinin qovuşduğu ənənələr idi. Yeni mərhələdə müasir Azərbaycan mədəniyyətinin ruhi-mənəvi, sosial-fəlsəfi, ideya-estetik əsasları yaradılırdı. Spesifik Azərbaycan şəraitində sosial tərəqqi ideyaları zəruri olaraq millətin mənəvi və milli tərəqqisinin inkişafına təkan verdi. Maarifçilərin fəaliyyəti etnobirləşdirici proseslərə,

Azərbaycan dilinə, adət və ənənələrin inkişafına, doğma torpağa bağlılığa cəmiyyətdə marağı gücləndirirdi.

Etnik ideologiyalaşmanın əsas təzahürlərindən biri milli-müstəqillik, müstəqil dövlətin yaradılması (H.B.Zərdabi) ideyası, xalq demokratiyası prinsipləri əsasında Azərbaycanın azad siyasi həyatının reallaşması (M.F.Axundzadə) ideyası oldu. Zaman keçdikcə, Azərbaycan maarifçiliyi müxtəlif qollara və cərəyanlara bölünmüşdür. M. F. Axundzadə ilə başlayan maarifçilik inqilabi-demokratik məfkurə ilə qovuşmuşdu. Ə. Həsənov maarifçiliyin bir neçə cərəyanını-ilkin, klassik demokratik cərəyanı (M. F. Axundzadə, H. B. Zərdabi, S. Ə. Şirvani, H. B. Vəzirov, Ə. Haqverdiyev, M. Şahtaxtlı, S. Mehmandarov, və s.) inqilabi-demokratik cərəyanı (C. Məmmədquluzadə, F. B. Köçərli, E. Sultanov, S. M. Qənizadə, R. Əfəndiyev, M. Hadi, M. T. Sidqi) göstərir. Azərbaycan mədəniyyətində mühüm yer tutan maarifçilik ideyaları və ədəbi-nəzəri ənənələr millətin təbii mənəvi mən- bəyi və mənəvi özünümühafizəsi kimi meydana gəlmişdir. Azərbaycan maarifçi- lərinin irəli sürdükləri milli ideyalar etnotarixi mötəbərlik və etnomədəni mahiy- yət kəsb etmişdir. Azərbaycan mədəniyyətində mühüm yer tutan maarifçilik ide- yaları və ədəbi-nəzəri ənənələr millətin təbii mənəvi mənbəyi və mənəvi özünü- mühafizəsi kimi meydana gəlmişdir. Azərbaycan maarifçilərinin irəli sürdükləri milli ideyalar etnotarixi mötəbərlik və etnomədəni mahiyyət kəsb etmişdir. Aka- demik Əfrand Daşdəmirov XIX əsr maarifçilərinin islam ideya-fəlsəfi və orta əsr- lər Azərbaycan intibahının ədəbi-fəlsəfi ənənələrindən bəhrələndiyini xüsusi qeyd edir: "Artıq XIX əsr Azərbaycan intellektual elitası öz etnomədəni axtarışlarında mənəvi mənbə kimi, islam ideya-fəlsəfi ənənələrilə yanaşı, Azərbaycan inti- bahının Bəhmənyar, Nizami, Tusi, Nəsimi, Füzuli kimi nəhənglərinin fəlsəfi-mə- nəvi irsinə müraciət edirdilər. Bu adlardan hər biri öz dövrünün mənəvi həyatın- dan, etnik çərçivəsindən kənara çıxan xüsusi bədii-estetik, ideya-mənəvi, fəlsəfi dünyanı özündə əks etdirir" [2].

Tədqiqatçı Sona xanım Vəliyeva azərbaycançılıq ideyasının formalaşmasında maarifçilik fəlsəfəsinin mühüm rol oynadığını göstərir: "Azərbaycançılıq ideologiyasının ardıcıl və məqsədyönlü formalaşması prosesi elmi ədəbiyyatda XIX əsrdə təşəkkül və inkişaf tapan maarifçilik hərəkatına aid edilir. O dövrdə Çar Rusiyası Azərbaycanı öz inzibati idarəetmə sisteminə daxil edərək, "Azərbaycan" sözünü ümumən xalqın yaddaşından silməyə çalışırdı. Ayrı-ayrı quberniyalara, canişinliklərə, qəzalara bölünmüş Azərbaycan, bütövlükdə, Qafqaz və Zaqafqaziya məfhumları içərisində əridilmişdi. Maarifçilik hərəkatı xalqın bütün bu məhrumiyyətlərə müqavimət reaksiyası kimi meydana gələrək, tarixi yaddaşın itməməsi, ana dilinin, adət və ənənələrin qorunub-saxlanması, inkişafı, mənəviyyatın, milli dəyərlərin yaşadılması, bütövlükdə, milli şüurun oyanması və milli özünüdərk prosesinin güclənməsi üçün mühüm təkanverici rol oynamışdı" [3].

**Ədəbiyyat siyahısı:**

1. Fərhadoğlu, Maqsud. Fəlsəfənin əsasları ( dərslik) - B. : Nurlan, -2006. - 400 s.
2. Cəfərov, Nizami. Azərbaycanşünaslığa giriş. -Bakı : - 2001, -səh. 39
3. Vəliyeva, S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair - Bakı: Azərbaycan Universieti nəşriyyatı, - 2002, – 140s.

**Наиля Фуад кызы Ширинова**

**ПРОСВЕТИТЕЛЬСКАЯ ИДЕОЛОГИЯ И ЕГО СУТЬ**

**Резюме**: Просветительские идеи и литературно-теоретические традиции, занимающие важное место в азербайджанской культуре, возникли как естественный источник и духовная самозащита нации. Национальные идеи, выдвинутые азербайджанскими просветителями имеют этно- историческое и этно-культурное значение.

**Ключевые слова:** просветительская философия, национальные ценности, национальная культура.

**Naila Fuad qizi Shirinova**

**EDUCATIONAL IDEOLOGY AND IT'S IMPORTANCE**

**Summary:** The main place of the Azerbaijan Educational ideas came into life in the literary theoretical traditions of the nations of the natural resources and spiritual self-defense. The national ideas of the people of Azerbaijani Educational system devoted the ethnographical faithty and ethnographical importance.

**Key words:** educational, humanity, national value, culture.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28. 04. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı**